# Milli Məclisin Sədri Sahibə Qafarova Kuba Respublikasına işgüzar səfərə gedib





Milli Məclisin Sədri Sahibə Qafarova sentyabrın 15-də G77 və Çin Qrupunun Zirvə görüşündə iştirak etmək üçün Kuba Respublikasının Havana şəhərinə işgüzar səfərə gedib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Kubanın Beynəlxalq Hava Limanında Milli Məclisin Sədrini Kubanın ədliyyə naziri Oskar Silvera Martinez, Azərbaycanın Kubadakı səfiri Ruslan Rzayev və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində spiker Sahibə Qafarovanın G77 və Çin Qrupunun Zirvə görüşündə çıxışı nəzərdə tutulub.

***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 16 sentyabr.- S.2.